# ÜMİDLƏ OYANDI, AÇILAN HƏR GÜN



*Könül AĞAYEVA (ŞİRVANLI)*
*Kürdəmir rayonu,*
*Karrar qəsəbə tam orta məktəbinin müəllimi*

### SON VİDA

Burda son ayrılıq, burda son vida,
Günəşin bərq vurub, batdığı yerdi
Böyümək həvəsli, gənclik xəyallı
Arzular ünvana çatdığı yerdi
* * *
Keçmişlə gələcək durub üzbəüz
Duyğular nə sətrə, sözə sığmayır
Bitir bir hekayə, ayrılır dostlar
İndidən bu həsrət gözə sığmayır
* * *
Küsüb suallar da, istəmir cavab
Susub kəlmələr də dodaqdan gedir
Bircə zəng səsiylə, sanki uşaqlar
Ürküb quşlar kimi, budaqdan gedir
* * *
Kağızla, qələmlə hesablanmayan
Ən ağır sınağa girirlər bu gün
Endirib ahəstə məktəb çantasın
Asır çiyinlərdən həyat öz yükün
* * *
Zamanla çarpışır könüllər bu an
Durdura bilməzlər, o axıb gedir
Ona dəyər verən,ya da verməyən
Hər kəsi ardında buraxıb gedir
* * *
Bu gün son günüdür dəcəlliyin də
Sabahdan dəyişər həyat öz təbin
Bir ömür bəxtinə "təəssüf"damar
Bu yurdu əliboş tərk edənlərin

### MƏHƏBBƏTDƏN ŞEİR YAZA BİLMİRƏM...

Məhəbbətdən şeir yaza bilmirəm
O duyğudan çoxdan küsüb getmişəm
Kim deyər ki, daha sevə bilmirəm
Mən ömrümü sevgiyə həsr etmişəm
* * *
Olubsa da gözlərimdə yaş gilə
Boylanmışam bu həyata eşq ilə
Tab gətirib hər acıya, müşgülə
Bu dünyanın sınağını sevmişəm
* * *
Tanrı eşqi taxtın qurub ürəkdə
Halal zəhmət mayam oldu çörəkdə
Gördüm hər kəs bir gün gedir xərəkdə
İnsan adlı qonağını sevmişəm
* * *
Hər mətləbi düşünmüşəm dərindən
Söz açmışam şeytana öz şərindən
Qorxub qəlbin xain, gizli sirindən
Vicdanımın qınağını sevmişəm

Beşikdəykən vurulduğum bir səsin
Laylasında min sevdaya batmışam
Ana, vətən, torpaq, qeyrət kəlməsin
İlmə-ilmə bir mənaya qatmışam
* * *
Hiss etmişəm məzlum qəlbin ağrısın
Öz sevgimlə sarımışam, sıxmışam
Mənim eşqim maldan-mülkdən yan keçib
Məhəbbətə ayrı gözlə baxmışam
* * *
Bagça-bağdan ətir alıb, gül dərib
Arzulara qarışmaqdı məhəbbət!
Allah verən azdı, çoxdu şükr edib
Həyat ilə barışmaqdı məhəbbət!

### DÜŞMƏN TANIDI AZƏRBAYCANI

İllərin həsrətin çəkib bağrına
Torpaq qan ağladı, yaş gilə-gilə
Xainin hikkəsin, nifrətin udub
Əridi dağlarda daş gilə-gilə
Qisas qiyamətə qaldı zənn edib
Ədəbdən-ərkandan qanmadı düşmən
Qılınc tək qınından sıyrılıb bir gün
Qeyrət at oynadar, sanmadı düşmən
Unutdu axmaqlar, tökdüyü qanlar
Al qanla açılan neçə sabahlar
Sorğusuz-sualsız qalan günahlar
Nə vaxtsa tutacaq yaxadan bizi
Vicdan buraxarmı köynəyimizi
Rəhbəri "VUR"-dedi, əsgəri o an
Qırx dörd gün düşmənə vermədi aman
İgidlər bürüdü dağları duman
Yudu otuz illik tökülən qanı
Göstərdi dünyaya Azerbaycanı
Xudayar dağlarda nəğmə deyəndə
Erməni, həddini bil-deyir orda
Elvin son nəfəsin lentə alanda
Yurdumdan nəfsini sil-deyir orda
Məlik at oynatdı, qızğın savaşda
Bayraqla büküldü on doqquz yaşda
Ona lay-lay çaldı, göydəki quş da
Vətənə, torpağa, elə can dedi
Qarabağ bizimdir, qana qan dedi
Poladın ruhu var, o dağda-daşda
Sanmayın yox idi, O bu savaşda
İllərlə soyuqda, qarda, yağışda
Ərlər yetişdirib, təməl tökdü O
Ölmədən düşmənin belin bükdü O
Kəfəni bayraqdan bildi şəhidlər
Ölümün gözünə güldü şəhidlər
Torpağın göz yaşın sildi şəhidlər
Silah da, güllə də, top da yalandı
Bu Vətən eşqiylə öldü şəhidlər
Qudurdu erməni, çaşdı Paşinyan
Özü öz əliylə, qəbrini qazdı
Qüdrətli rəhbərim tutub ulğumun
Xəcalət kəlməsin, alnına yazdı
Dünya seyr elədi bu haqq savaşın
Durdu dayağında, qardaş qardaşın
Hər qarış torpağın, hər qopuq daşın
Biz yenə uğrunda verərik canı
Uzanan əllərin, danışan dilin
Başını üzərik, tökərik qanı
Artıq tanısınlar Azərbaycanı!
Artıq tanısınlar Azərbaycanı!

### FİKRƏ, SÖZƏ SIĞMAYIR

Heydər adlı şəxsiyyət
Onu üfüqdən doğan
Göy üzündə Günəşə
Bənzədir bəşəriyyət
İstər doğma yurdda ol
O dahinin adını
Eşidəndə, duyanda
Elə bil ki, önündə
Əzəmətli, vüqarlı
Dağ görürsən, o anda
Bəli!Tək insan deyil
Sönməz bir Günəş kimi
Dünyaya gəlmişdi O
Dağlar qoy inciməsin,
Əməliylə, işiylə
Zirvədən də zirvəyə
Qalxıb, yüksəlmişdi O
Hələ gənclik yaşından
Onda müdriklik vardı
Şöhrət deyi, şan deyir
Vətən sözün, xalq sözün
Yenilməz bayraq kimi
Başı üstə tutardı
Vərəqləsən yurdunun
Tarixin vərəq -vərəq
Koroğlutək, Babəktək
Neçə cəngavərlərin
Adından gəlir soraq
O da cəngavər oldu
Bu əsrin qucağında
Vətən üçün, xalq üçün
Gecə -gündüz vuruşdu
Yorulmadı bir an da
Silaha əl atması
Silahsız döyüşdü O
Vətən göylərindəki
Müharibə dalğasın
Sonsuz müdrikliyiylə
Bir anda dəyişdi O
Sözü oldu HEYDƏRin
Yeniləyən silahı
Heydər sinəsindəki
Susmaz vətən eşqiylə
Dünyaya işıq saçır
Azərbaycan sabahı
Göyləri, buludları
Fəth eyləyən o zirvə
Həssas duyğularıyla,
Sonsuz sadəliyiylə
Seçimlərdi hər yerdə
Təkcə prezident deyil
Səngərdə keşik çəkən
Mətin əsgər idi O
Düşmənin gülləsinə
Erməni hiyləsi nə
Silah gücü çatmayan
Candan sipər idi O
Oğlu Vətən yolunda
Şəhid olan analar
Silib gözünün yaşını
HEYDƏR ə"oğul"dedi
Ata-anasız qalan
Körpələr bir ağızdan
O qayğıkeş insana
"Babacan, sağ ol"dedi...
Onun Azərbaycandan
Azca uzaq düşməsi
Başlamışdı vətəndə
Quldurlar arasında
Vətəndaş çəkişməsi
Erməni əldə silah
Yurdumu talayanda,
Kəsib körpə başını
Qanla yer sulayanda
Vəzifə davasıydı
Kürsülərdə qışqıran
Davranışın bilməyən
Dövlət məmurlarının
Başlarını gicəldən
Liderlik havasıydı
Arxasız qalan xalqın
Mənafeyi itirdi
Torpağı alınırdı
Kimsə doğru danışsa
Haqqı tapdalanırdı
Artıq zülmə dözməyən
Xalq zülmdən usandı
Zülmə baxıb kor olan
Millətimin gözündə
Ümid işığı yandı
"Heydər baba, gəl"deyən
"Bizi miskin bəladan
Əl atıb qurtar" deyən
Millətin fəryadında
Səmalarda bərq vuran
Bir Günəş dalğalandı
HEYDƏR adlı bir Günəş!
Qaranlığa nur saçan,
Əl açmış millətinə
Geniş sinəsin açan
HEYDƏR adlı bir atəş!
Bu torpağı, bu milləti
Vüqarından endirən
Vətən xainlərini
Müttəhim kürsüsündə
Əyləndirən, dindirən
Məhz HEYDƏR oldu, bilin
Onun haqqı önündə
Ödənilməz borcu var
İllərin, nəsillərin
Xalq Heydəri çağırdı
Heydər xalqa qovuşdu
Bu ayrılmaz cütlüyün
Dönməz iradəsindən
Açılan səmalara
Ülvi məhəbbət uçdu
"Heydər -xalq"məhəbbəti
"Xalq-Heydər"məhəbbəti
Göllər, çaylar yox olsa,
Okeanlar qurusa
Bu tükənməz məhəbbət
Sarsılan deyil! Qəti!

### AYRILIQ HİSSİ

Şeirdin, qəzəldin, bilmirəm, gülüm
Bu sevgin ruhuma, çox yaraşırdı
Xəyallar səninlə, bir dünya qurub
Ən gözəl illərlə, sevdalaşırdı
* * *
Pıçıltın bəs idi, isinsin könül
İndi nə söyləsən, səsin də yaddı
O son davranışın, o son sözlərin
Bir az qərib gəldi, ayrılıq daddı
* * *
Soyuq baxışların, qəlbi titrədən
Yaxınsan, uzaqsan, bilinmir yerin
Laqeyd fikirlər, yersiz iradlar
İz açdı qəlbimdə, bil, dərin-dərin
* * *
Duyğular kövrəlib, üzdə kədər var
Qəlbə söz keçirmək, çətindir düzü
Artıq biz istəsək, istəməsək də
Şübhə dan yerimdən, sökür gündüzü

### HƏYAT HEKAYƏMİZ

*ixtisarla*

Xatırla, əzizim, sənlə bu ömrün
Bağçasın yaşadıq, bağın yaşadıq
Nə addım atmadıq, nə yol getmədik
Aranın, yaylağın, dağın yaşadıq
* * *
Çiçək də topladıq, şehli çəməndən
Ətriylə dəyişdi, dünyanın rəngi
Bir anda boy atdı, qəlbdə arzular
Quruldu büsatlar, çalındı cəngi
* * *
Ümidlə oyandı, açılan hər gün
Uçuşdu xəyallar, doldu ömrümüz
Hərdən fərəhlənib, coşub sevincdən
Hərdən kədərlənib, soldu ömrümüz
* * *
Kasıb komamızda, gülüş səsləri
Rəng verdi tavana, divara, daşa
İllər hardan gəlib, , keçdi bilmirəm
Səninlə bir ömrü, bitirdik qoşa

### YALAN ADAM

Parçaladı ürəyimi
İnandığım yalan adam
Sabahıma ümid verib
Dünənimdə qalan adam
* * *
Kədər verdi əllərimə
Həsrət bükdü tellərimə
Məhkum etdi illərimə
Həyatımı çalan adam
* * *
Bitməz ömrün bu savaşı
Dərd acıdır, ürək naşı
Əkdi gözlərimdə yaşı
Gizli-gizli gülən adam
* * *
Əbət gələr günün biri
Yanar bağrı diri-diri
Mənim isə gəlməz geri
Ürəyimdə ölən adam.